RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

KAFEDRA: «CİNAYƏT HÜQUQU»

«MALİYYƏ HÜQUQU» fənni üzrə

# MÜHAZİRƏ

***MÖVZU № 1:* «Dövlətin maliyyə fəaliyyəti və onun tənzimlənməsinin hüquqi əsasları»**


**Tərtib etdi:**

«Cinayət hüququ» kafedrasının rəisi,
polis polkovniki, h.ü.f.d
**İmrəli Məmmədli**

«Cinayət hüququ» kafedrasının müəllimi,
polis mayoru
**Şamxal Kərimov**


Mühazirə kafedranın iclasında müzakirə edilib və bəyənilib.

Protokol №____ «____»__________2017-cı il.

**BAKI – 2017**

# Mövzu № 1. Dövlətin maliyyə fəaliyyəti və onun tənzimlənməsinin hüquqi əsasları

## P L A N:

GİRİŞ

1. Maliyyə və Azərbaycan Respublikasının maliyyə sistemi
2. Dövlət və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyətinin anlayışı, əhəmiyyəti və metodları

NƏTİCƏ

## Ə D Ə B İ Y Y A T:


1. Azərbaycan Respublikasının Konstitusiyası /Yeni redaksiyada Bakı. «Qanun», 2017
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Bakı. 2017
3. Azərbaycan Respublikasınınİnzibati Xətalar Məcəlləsi 2017
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi 2017
5. Banklar haqqında Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli Qanunu
6. Mərkəzi Bank haqqında Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli Qanunu
7. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli Qanunu
8. Mirzəyeva A.Q. «Azərbaycan Respublikasının maliyyə hüququ». Dərslik. «Adil oğlu», nəşriyyat ı Bakı, 2008.
9. Əhmədov M.İ. «Dövlət maliyyəsi. Tarixi, iqtisadi, hüquqi və siyasi aspektlər». «Çaşıoğlu». Bakı, 2000.
10. «Финансовое право». Учебник. Под. ред. Н.И.Химичева. «Юрист», Москва. 2012.
11. «Финансовое право». Учебник. Под. ред. О.Н.Горбуновой. 2-ое изд. Москва. «Юрист», 2011.
12. Карасева М.В. «Финансовое прав. Учебник. Москва. «Юрист», 2010

# G İ R İ Ş

Maliyyə hüququ spesifik ictimai münasibətlər dairəsini – maliyyə münasibətlərini əhatə edir. Bu münasibətlərin təbiətini anlamaq üçün həmin münasibətlərin predmeti olan maliyyə haqqında dəqiq təsəvvür yaratmaq məqsədəmüvafiqdir. Bunun üçün mövzu üzrə maliyyəni iqtisadi kateqoriya kimi, əmtəə-pul münasibətləri ilə üzvü surətdə bağlılığı kimi, hüquqi anlayış kimi təhlil etmək vacibdir. Maliyyənin hüquqi mahiyyəti və məzmununu açmaq üçün ilk növbədə, bir sıra alimlərin həm əvvəllər, həm də müasir dövrdə hüquq ədəbiyyatında əksini tapmış nöqteyi-nəzərlərinə diqqət yetiriləcək.

İqtisadi münasibətlər kimi maliyyə dedikdə, iqtisadi və sosial ehtiyacların təmin edilməsi üçün zərur olan dövlətin, onun ərazi vahidlərinin, müəssisə, idarə və təşkilatların pul vəsaiti fondlarının yaradılması, bölüşdürülməsi və istifadə olunması prosesində yaranan ictimai münasibətlər başa düşülməlidir.

Maliyyə, dövlətin öz vəzifə və funksiyalarının həyata keçirilməsi üçün tətbiq etdiyi bir iqtisadi mexanizmi olmaqla, ümumi daxili məhsulun və milli gəlirin bölüşdürülməsi və yenidən bölüşdürülməsi mexanizm, habelə istehsal və ictimai tələbatların ödənilməsi üzərində nəzarət vasitəsidir.

Qeyd etməliyk ki, maliyyə və onunla bağlı münasibətlər bir qayda olaraq, mütləq pul münasibətləridir. Bununla belə, cəmiyyətdə başqa xarakterdə olan pul münasibətləri də baş verir. Məsələn, alqı-satqı, inzibati cərimələr, əmək haqqı və s. ilə bağlı münasibətlər də pul münasibətləridir. Lakin adları cəkilən münasibətlər müvafiq surətdə mülki hüquq, inzibati hüquq, əmək hüququnun təsir dairəsinə daxildir. Maliyyə isə elə pul münasibətlərini nəzərdə tutur ki, bu zaman dövlətin və onun ərazi vahidlərinin, müəssisə, idarə və təşkilatların pul vəsaiti fondlarının

yaradılması, bölüşdürülməsi və ya istifadə olunması həyata keçirilmiş olur. Belə ki, maliyyə münasibətləri, bir qayda olaraq, mütləq pul münasibətləridir, lakin heç də bütün pul münasibətləri maliyyə münasibətləri hesab oluna bilməz.

Beləliklə, mövzu üzrə tərtib olunmuş suallarda bu ya digər məsələləri təhlil etməyə çalışacağıq.

## *SUAL 1.* Maliyyə və Azərbaycan Respublikasının maliyyə sistemi

Maliyyə tarixi xarakter daşıyır. Əmtəə-pul münasibətləri və dövlətin meydana gəlməsi ilə əlaqədar olaraq maliyyə münasibətləri XIII-XV əsrlərdə İtaliyada, xüsusilə də onun Florensiya, Venetsiya, Genuya kimi şəhərlərində istifadə olunmağa başlamışdır. Bəzi mənbələrdə maliyyə anlayışının ilk dəfə XVI əsrdə Fransada pul fondlarının yaradılması və istifadə olunması ilə bağlı işlənildiyi söylənilir. Hər bir cəmiyyətdə maliyyənin zəruriliyi aşağıdakı şərtlərlə bağlıdır:

1. Dövlətin fəaliyyət göstərməsi.
2. Əməyin kəmiyyət və keyfiyyətinə görə bölgünün fəaliyyət göstər-məsi, insanların tələbatının tam təmin edilməsinin mümkün olmaması.
3. Bütün normal inkişaf etmiş cəmiyyətlərdə bir neçə mülkiyyət forması fəaliyyət göstərir. Bu mülkiyyət formaları arasında iqtisadi əlaqəlri həyata keçirmək üçün əmtəə-pul münasibətlərinin və maliyyənin olmasının zəruriliyi.

Ümumiyyətlə, cəmiyyətin inkişafı maliyyə münasibətlərinin inkişafı ilə müəyyən olunur. Başqa şəkildə desək, maliyyə muasir cəmiyyətin inkişafının mühüm elementlərindən biridir.

Maliyyə sözü latın sözü olub, hərfi mənası «pul tədiyyəsi» deməkdir. Maliyyə pul tədiyyəsi kimi də ilk dəfə olaraq qeyd etdiyimiz kimi İtaliyada tətbiq olunmuşdur. Sonralar bu anlayışdan tədricən dünyanın bütün ölkələrində istifadə olunmuş və beynəlxalq status almışdır.

Maliyyə anlayışı pul münasibətlərini ifadə etməsinə baxmayaraq, o, heç də bütün pul münasibətlərini əhatə etmir. Pul münasibətləri maliyyə münasibətlərinə nisbətən daha geniş anlayışdır.

Maliyyə münasibətlərini digər pul münasibətlərindən fərqləndirən aşağıdakı xüsusiyyətləri var:

1. Maliyyə münasibətləri bölgü xarkteri daşıyır, yəni ümumimilli məhsulun və milli gəlirin bölgüsü ilə əlaqədardır.

2. Bu münasibətlər imperativ xarakterlidir, yəni həmişə dövlətlə əlaqədardır.

3. Pul fondlarının yaradılması və istifadəsi ilə əlaqədardır.

Bu münasibətlərin hər üçünə uyğun olan pul münasibətləri maliyyə münasibətləridir.

Bunları yekunlaşdırıb belə qənaətə gəlmək olar ki, maliyyə – iqtisadi kateqoriya olub cəmiyyətin və onun üzvlərinin tələbatlarını ödəmək məqsədilə pul vəsaitlərinin vahid mərkəzdə cəmlənməsi və paylanmasının nizamlanması və istifadəsi prosesində yaranan və dövlət tərəfindən təşkil edilən pulla bağlı olan münasibətlərin sistemi deməkdir.

Maddi məzmununa görə (maddi mənada) maliyyə pul fondlarının dövlət tərəfindən öz funksiyalarının yerinə yetirmək məqsədilə səfərbər və istifadə edilməsidir. Dövlət maliyyəsinin tərkibinə dövlət müəssisələrinin, hüquqi şəxslərin və vətəndaşların hesablarındakı və əmanətlərindəki pul vəsaitləri, eləcə də vergilər və ayırmalar yolu ilə büdcəyə daxil olan pul vəsaitləri və büdcədənkənar fondlar daxildir.

İqtisadiyyatın inkişaf etdirilməsi və cəmiyyətin sosial təlabatlarının yerinə yetirilməsi məqsədi, bu vəzifələrin yerinə yetirilməsi üçün məsul olan dövlətin əlində böyük pul ehtiyatlarının olmasına zərurət yaradır. Dövlət öz funksiyalarını yerinə yetirmək üçün həmişə zəruri pul vəsaitinə malik olması bu pul vəsaitlərinin vaxtında və düzgün paylanması üçün maliyyə fəaliyyətini həyata keçirir. Lakin maliyyəyə yuxarıda verilmiş anlayış, onun bir iqtisadi kateqoriya kimi, kəmiyyət tərəfini mahiyyətcə tam açıqlamadığından dolğun anlayış hesab edilə bilməz. Bu mövqedən yanaşsaq, maliyyə – cəmiyyətin sosial tələbatlarının təmin edilməsi və istehsalın genişləndirilməsi məqsədilə dövlətin, onun ərazi vahidlərinin, idarə, müəssisə və təşkilatların pul vəsaitləri fondlarının formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə yaranan iqtisadi pul münasibətləridir.

Maliyyə üçün bölgü və nəzarət funksiyaları xarakterikdir. Bu funksiyaların realizəsi nəticəsində onların dövlət və cəmiyyətin həyatında sosial-iqtisadi rolu ifadə olunur. Maliyyənin vasitəsi isə milli sərvətin və məcmu milli məhsulun bölüşdürülməsi, həmçinin istehsal maddi və sosial nemətlərin bölüşdürlməsi üzərində həyata keçirilir.

Maliyyənin funksiyalarının realizəsi nəticəsində dövlətin və cəmiyyətin müxtəlif tələbatlarını təmin etmək; ölkənin müdafiəsini təmin etmək; sosial-mədəni və məişət ehtiyaclarını, (təhsil, sağlamlıq, mədəniyyət, əmək qabiliyyəti olmayanların saxlanması və s.) təmin etmək məqsədilə pul fondları yaradılır, bölüşdürülür və istifadə edilir.

Maliyyənin bölgü funksiyası məhsulun (ümumi məhsulun) və milli gəlirin bölgüsü və yenidən bölüşdürülməsi prosesini əhatə edir. Bu zaman bölgü obyekti kimi bu sadaladığımız vəsaitlər bölgü subyekti kimi isə dövlət, müəssisələr, təşkilatlar, əhali və s. çıxış edir. Bölgü prosesi bölüşdürmə və yenidən bölüşdürmə mərhələlərindən ibarətdir. İlk bölgü müəssisələr tərəfindən həyata keçirilir. Məhsul istehsal olunur və satılır. Satışdan daxil olan gəlir müəssisə, idarə, təşkilat səviyyəsində müxtəlif istiqamətlərdə bölüşdürülür. Bu zaman əvvəlcə istehsala sərf olunmuş material xərclərinin dəyəri çıxılır. Material xərclərinin dəyəri bütövlükdə müəssisənin sərəncamında qalır və xammal, material, yanacaq və s. alınmasına sərf olunur. Bu proses zamanı maliyyə münasibətləri kəsilir.

Milli məhsulun yerdə qalan hissəsi olan milli gəlir maliyyə vasitəsilə iki hissəyə: 1) əmək haqqı fonduna və 2) xalis gəlirə bölünür. Əmək haqqı fondunun bir hissəsi əmək haqqı formasında paylanır. Əmək haqqına vergilər və sosial sığortaya ayırmalardan ibarət digər hissə mərkəzləşdirilmiş fondlara, daha doğrusu büdcəyə və pensiya fonduna yönəldilir. Bu zaman maliyyə münasibətləri davam edir.

Mərkəzləşdirilmiş fondlar vasitəsilə toplanmış vəsait müxtəlif istiqamətlərdə yenidən bölünür. Bu zaman da maliyyə münasibətləri davam edir.

Qeyd etdiyimiz bütün bu bölgülər kortəbii, yaxud özbaşına aparılmır. Məhz buna görə də nəzarət funksiyası maliyyənin ikinci funksiyası sayılır. Bu funksiya milli gəlirin və məcmuu məhsulun bölüşdürlməsi münasibətlərini, pul fondlarının yaranmasını və istifadəsini əhatə edir. Maliyyənin nəzarət funksiyasının həyata keçirilməsində əsas məqsəd maliyyə məsələləri üzrə qanunvericilik aktlarına əməl olunmasını, gəlirlərin düzgün yığılmasını, xərclərin öz məqsədləri üçün istifadə edilməsini müəyyənləşdirməkdən ibarətdir.

Beləliklə, dediklərimizi qısaca təhlil etsək görərik ki, maliyyə və pul müxtəlif iqtisadi kateqoriyalardır. Müəyyən cəhətlərinə görə onlar üst-üstə düşsələr də cəmiyyət həyatındakı funksiyalarına və yerinə yetirdikləri rollarını müxtəlifliyinə görə bir-birindən əsaslı şəkildə fərqlənirlər. Belə ki, əgər pul ödəmə və dövriyyə vasitəsi, dəyər ölçüsü və s. kimi çıxış etdirsə, maliyyə bölgü və nəzarət funksiyalarını yerinə yetirir. Maliyyə heç də bütün münasibətləri əhatə etmir. Məsələn, alqı-satqı, əmək haqqının ödənilməsi və sair bu kimi ekvivalent xarakter daşıyan əlaqələr zamanı yaranan pul münasibətləri maliyyə ilə əhatə olunmur.

Maliyyə münasibətlərinin məzmununa yalnız dövlətin, inzibati ərazi vahidlərininin, müəssisələrin, təşkilatların, idarələrin pul fondlarının yaradılması ilə bağlı münasibətlər daxildir. Eyni zamanda bu kateqoriyalar bir-biri ilə qarşılıqlı əlaqədədir və bir keyfiyyətdən digərinə keçir.

Maliyyə səciyyəvi xüsusiyyətlərə və özünün strukturuna malik olan bir tamlıq təşkil edən iqtisadi kateqoriyadır. Bu iqtisadi kateqoriyaların strukturuna, hər birisinin özünəməxsus xüsusiyyətləri və aralarında sıx qarışılıqlı əlaqə olan (vəsilələr) institutlar daxildir. Maliyyə institutlarının (vəsilələrinin) və onların qarışılıqılı əlaqələrinin məcmusu ölkənin maliyyə sistemini təşkil edir[1].

---

[1] Бах: Финансовое право. Учебник /Под. ред. О.Н.Горбуновой. М.Юрист, 2006.

Maliyyə sistemi-bir-biri ilə qarşılıqlı əlaqədə olan maliyyə institutlarının məcmusudur. Bunların köməyi ilə pul vəsaitləri toplanılır, bölüşdürülür və istifadə olunur.

Son illər iqtisadi və siyasi sitemin dəyişməsi (bazar iqtisadiyyatına keçid) Azərbaycan Respublikasının maliyyə sistemin də əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olmuşdur. Yeni maliyyə institutları yaranmış, əvvəlki institutların məzmunu, daxili strukturu, qarışılıqlı əlaqə formaları dəyişilikliyə məruz qalmışdır.

Hazırkı mərhələdə Azərbaycan Respublikasının maliyyə sisteminə aşağıdakılar daxildir:

- büdcə sistemi – dövlət budcəsi, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi və inzibati ərazi vahidlərini büdcəsi;
- dövlət və inzibati ərazi vahidlərinin büdcəyə daxil olmayan (büdcədənkənar) məqsədli fondları;
- xalq təsərrüfatının müxtəlif sahələrinin, təşkilatların, idarə və müəssisələrin maliyyəsi;
- şəxsi və əmlak sığortası;
- kredit (dövlət, bələdiyyə və bank krediti).

Sadalanmış maliyyə vəsilələri həm dövlət, həm Muxtar Respublika, həm də yerli idarəçilik orqanları səviyyəsində fəaliyyət göstərir.

İndiki dövrdə Azərbaycan Respublikasının maliyyə sisteminin inkişafına xarici dövlətlərin təcrübəsindən istifadə edilməsinin mühüm təsiri vardır. Məsələn, artıq Azərbaycan Respublikasında da inkişaf etmiş ölkələrdə olduğu kimi müxtəlif büdcə və büdcədənkənar məqsədli fondlar yaradılır. Bank krediti, şəxsi və əmlak sığortası üzərində dövlət inhisarı ləğv olunmuşdur. Ümumiyyətlə, son illər Azərbaycan Respublikasının maliyyə sistemində bazar iqtisadiyyatının tələbələrinə cavab verməyə qabil olan bir çox qurumlar yaradılmışdır.

Maliyyə sisteminin hər bir həlqəsi səviyyəsində pul fondları təşkil edilir və istifadə olunur.

Bu fondlar mərkəzəlşdirilmiş və mərəkəzləşdirilməmiş, eləcə də ümumi və xüsusi əhəmiyyətli ola bilər. Mərkəzləşdirilmiş fondun vəsaiti əsasən təşkil olunduğu ərazinin ümumi ehtiyacları üçün sərf olunur (məsələn, Dövlət büdcəsi, NMR-in büdcəsi, rayon büdcəsi və s.). Mərkəzləşdirilməmiş pul fondlarına idarə, müəssisə və təşkilatların pul fondları aiddir. Bu fondların vəsaiti həmin subyektlərin istehsal və sosial ehtiyaclarına sərf olunur.

Məqsədli pul fondları dövlət və ya yerli büdcədən fərqli olaraq ümumi təyinat üçün deyil, xüsusi olaraq təşkil olunduğu ərazinin sosial ehtiyaclarını təmin etmək və istehsal həcmini artırmaq üçün istifadə olunur (məsələn, pensiya fondu, əhalinin məşğulluq fondu, yol fondu, ekologiya fondu və s.).

Qeyd edək ki, Azərbaycan Respublikasının maliyyə sistemində əsas yeri büdcə sistemi tutur. Çünki, büdcə sisteminə daxil olan pul fondlarının köməyi ilə ümümdövlət əhəmiyyətli sosial-iqtisadi plan və proqramlar reallaşır, ölkənin müdafiəsi və təhlükəsizliyi təmin olunur.

Büdcə sisteminin vəsaitləri əsasən hüquqi və fiziki şəxslərdən alınan vergilər və digər məcburi ödəmələr hesabına təşkil olunur. Lakin eyni zamanda daxili və xarici mənbələrdən qaytarılmaq şərti ilə alınan kreditlərdən də istifadə olunur.

Büdcədənkənar dövlət və bələdiyyə məqsədli fondları xarici ölkələrin təcrübəsindən istifadə etməklə 90-cı illərin əvvəllərində yaranmağa başlamışdır. Büdcədənkənar məqsədli fondlar müvafiq olaraq dövlət hakimiyyət və yerli özünüidarəçiliyin nümayəndəli, yaxud icra orqanları tərfindən yaradılır.

Azərbaycan Respublikasının 31 dekabr 1991-ci il tarixli Qanunu ilə əhalinin Sosial Müdafiə Fondu, Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli «Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yfrdım Fondu», 27 avqust 2002-ji il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə «Azərbaycan Respublikasının Sahibkarlığa kömək Milli Fondu haqqında» Əsasnamə təsdiq edilmiş, 29 dekabr 1999-cu il tarixli 240 saylı Fərmanı ilə Dövlət Nifet Fondu yaradılmışdır.

Azərbaycan Respublikası Silahlı qüvvələrinə yardım Fondunun yaradılması barədə Fərmanıq fondun əsasnaməsi təsdiq edildiyini və onun əsas vəzifə sahibi qüvvələrin inkişafının təmin edilməsi və onların maddi texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi müəyyən olunmuşdur. Əsasnaməyə əsasən fondun maliyyə hüquqi fiziki şəxslərin fəaliyyətindən könüllü qaydada daxil olan vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər daxil olmalardır.

Dövlət Neft Fondu respublika ərazisində və Xəzər dənizi sektorunda neft və qaz ehtiyatlarının çıxarılması üzrə bajlanmış müqavilələrin həyata keçirilməsində Azərbaycan Respublikasının əldə etdiyi pul vəsitlərindən səmərəli istifadə etmək məqsədi ilə yaradılmışdır. Bu fond büdcədənkənar fond olaraq, onun vəsaitlərindən respublikanın ümumilli problemlərinin həllində istifadə olunur.

Azərbaycan Respublikası hakimiyyətinin aktları əsasında digər büdcədənkənar məqsədli fondlar da yaradıla bilər. Bu fondlar hüquqi və fiziki şəxslərdən alınan məcburi ödəmələr hesabına, yaxud könüllülük əsasında daxil olan vəsaitlər hesabına təşkil oluna bilər. Qanunvericilikdə müəyyən olunduğu hallarda isə bu fondlara büdcə vasitələri də daxil edilə bilər.

Ümumimyyətlə büdcənkənar məqsədli fondların yaradılmasında məqsəd dövlətin maliyyə ehtiyatlarının artırılmasını və onlardan səmərəli və məqsədəuyğun şəkildə istifadə olunmasını təmin etməkdən ibarətdir.

Müəssisə, idarə, təşkilatların xalq təsərrüfatının sahələrinin maliyyəsi, bu subyektlərin (müssisələrin, nazirliklərin və s.) sərəncamında olan və onların öz funksiya və vəzifələrinin yerinə yetirilməsi üçün istifadə etdikləri xüsusi pul fondlarıdır. Maliyyə sisteminin bu həlqəsi öz növbəsində 2 yerə bölünür:

1) kommersiya təşkilatlarının maliyyəsi;

2) qeyri-kommersiya təşkilatlarının maliyyəsi.

Kommersiya təşkilatlarının fəaliyyəti mənfəət əldə edilməsinə əsaslanır və buna müvafiq olaraq, hər şeydən əvvəl, onun hesabına maliyyələşdirilir. Qeyri-kommersiya təşkilatların fəaliyyəti isə bu və ya digər qeyri-maddi

tələbatların (təşkilati-idarə, sosial-mədəni və s.) təmin edilməsinə əsaslanır və başlıca nizamnamə vəzifəsi kimi mənfəət əldə edilməsi məqsədi güdmür. Lakin onu da qeyd etmək lazımdır ki, son illər bir sıra büdcə təşkilatları, xüsusən elm, təhsil və mədəniyyət sahələrində öz fəaliyyətlərindən gəlir əldə etmək və buna uyğun şəkildə maliyyələşdirmə mənbələrində dəyişiklik aparmaq məqsədilə «kommersiyalaşdırma» imkanından istifadə edilir. Belə təşkilatların hüquqi vəziyyəti onların fəaliyyətinin üstünlük təşkil etdiyi tərəfə görə müəyyənləşdirilir.

Müəssisələrin maliyyəsi – maliyyə sisteminin ilkin həlqəsidir və bu sistemin əsasını təşkil edir. Müəssisələrin maliyyəsi bilavasitə maddi istehsalla əlaqədardır. Bildiyimiz kimi, milli gəlir bu prosesdə yaranır, sonra isə maliyyə sisteminin vasitəsi ilə paylanır və yenidən bölüşdürülür.

Öz maddi məzmnuna görə müəssisələrin maliyyəsi hər hansı bir konkret müəssisədə yaradılan, həmin müəssisənin istehsal fəaliyyətinin genişləndirilməsinə və onun işçilərinin sosial tələbatlarını təmin edilməsi üçün istifadə olunan müxtəlif təyinatlı xüsusi pul fondlarıdır.

Müəssisələrin maliyyəsi istehsalın və istehsal olunmuş məhsulların realizə olunmasının bütün mərhələləri ilə sıx əlaqəlidir ki, bu da öz növbəsində həmin proseslərə bilavasitə təsir göstərməyə və istehsalın səmərəliliyini təmin etməyə imkan verir.

Son illər Azərbaycan Respublikasının təsərrüfat təşkilatları ilə xarici ölkələrin təsərrüfat təşkilatlarının əməkdaşlığı və vəsaitlərin birləşdirilməsi əsasında yaradılan birgə (müştərək) müəssisələrin maliyyəsi də bu maliyyə sisteminin bu həlqəsində vacib yerlərdən birini tutur. Belə müəssisələrin əmlakı tərəflərin ümumi sərəncamında olduğu kimi pul fondları da tərəflərin ümumi sərəncamında olur. Azərbaycan Respublikasının təsərrüfat təşkilatının payına düşən maliyyə ölkənin ümumi maliyyə ehtiyatlarının artmasına səbəb olur.

Müəssisələrin maliyyəsindən başqa maddi istehsal sahəsində digər təsərrüfat subyektlərinin də maliyyəsi mövcuddur. Bu maliyyə digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin maliyyəsidir. Məsələn,

banklar, bank olmayan kredit təşkilatları, sığorta şirkətləri, müxtəlif fondlar və kommersiya əsasları ilə fəaliyyətini həyata keçirən, müxtəlif xidmətlər göstərən digər təşkilatlar, şəxsi və əmlak sığortası – hüquqi və fiziki şəxslərə təbii fəlakətlər, bədbəxt hadisələr və digər müxtəlif qarşısıalınmaz hadisələr zamanı dəymiş maddi zərərin əvəzinin ödənilməsinə yönəldilən sığorta pul fondlarının təşkilinin təmin olunmasıdır. Bu fondların vəsaiti əsasən onlarla sığorta müqaviləsi bağlamış fiziki və fiziki və hüquqi şəxslərdən daxil olan üzvülük haqları hesabına formalaşır. Lakin qunavericilikdə nəzərdə tutulmuş hallarda isə dövlət büdcəsindən sığorta hadisələri zamanı vəsait ayrıla bilər (hərbiçilərə, dövlət xidmətçilərinə, dövlət vergi xidmətinin işçilərinə və s.).

Ümumiyyətlə, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq əvvəllər dövlətin inhisarında olan sığorta məsələləri artıq dövlət inhisarından çıxmışdır. İndi dövlət sığorta təşkilatları ilə yanaşı bu sahədə dövlətin nəzarəti altında olan, lakin qeyri-dövlət təşkilati olan sahibkarlıq fəaliyyəti kimi sığorta məsələləri ilə məşğul olan təşkilatlar yaranmaqdadır.

Kredit – müxtəlif subyektlərin sərbəst pul vasitələrini cəlb etməklə onları pul fondlarında toplamaq və əvəzlilik şərtilə müəyyyən müddət üçün digər subyektlərə müvəqqəti olaraq istifadə üçün verməkdir. Kredit borc alan tərəfə təkcə cəlb olunmuş belə vəsaitlərin hesabına deyil, həm də kreditorun özünə məxsus olan vəsait hesabına da verilə bilər.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq kredit münasibətləri də öz məzmununa və iştirakçıların dairəsinə görə daha rəngarəng olmuşdur.

Kreditin iki forması fərqləndirilir:

a) dövlət və bələdiyyə krediti;

b) bank krediti.

Dövlət krediti dedikdə, elə münasibətlər nəzərdə tutulur ki, bu zaman dövlət borcları yaranır. Dövlət özünün çoxsahəli xərclərini fasiləsiz maliyyələşdirmək, dövlət büdcəsinin çatışmamazlığını aradan qaldırmaq üçün hüquqi və fiziki şəxslərin vəsaitlərini müvəqqəti istifadə üçün götürür. Dövlət

bu zaman borclu, vəsaiti verən tərəf isə (hüquqi və ya fiziki şəxs) kreditor qismində çıxış edir.

Dövlət krediti formasında həm daxili, həm də xarici hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərindən istifadə olunur.

Dövlət kreditinin fəaliyyəti genişləndikcə dövlət borclarıda artır. Dövlət hər vasitə ilə dövlət borclarının azaldılmasına səy göstərməlidir.

Bütün bunlarla bərabər ola bilər ki, dövlət büdcə vəsaitindən müxtəlif subyektlərə iqtisadi münasibətlərini inkişaf etdirmək, maliyyə köməkliyi etmək və s. bu kimi məqsədlərlə müvəqqəti istifadə etmək vəsaiti təqdim etsin. Qeyd edək ki, kreditin bu forması da dövlət krediti adlandırılır. Lakin bu münasibətdə dövlət borclu kreditor qismində çıxış edir.

Bank krediti – banklar tərəfindən hüquqi və fiziki şəxslərə, onların öz istehsal, sosial və digər tələbatlarının ödəmək üçün müddətlilik və əvəzlilik şərtilə, girovla təminat verilmiş müqavilə əsasında pul vəsaitinin müvəqqəti istifadə üçün verilməsi ilə əlaqədar yaranan münasibətlərdir[1].

Qeyd edək ki, bu zaman banklar kredit ehtiyatları kimi hüquqi və fiziki şəxslərin həmin bankda olan hesablarında olan vəsaitlərdən istifadə olunur. Bəzi hallarda isə büdcə və digər ehtiyatlardan da istifadə olunur.

Bazar iqtisadiyyatına keçid şəraitində bank kreditləşdirilməsinin obyektinin və kredit münasibətlərin subyektlərinin dairəsi kifayət qədər genişlənmişdir. Bank sistemi də dəyişmişdir: əvvəlki dövrlərdə dövlətin müstəsna mülkiyyətində olan bankların əvəzində Azərbaycan Respublikasının Mərkəzi Bankının nəzarəti altında, müxtəlif mülkiyyət formalarına əsaslanan kredit təşkilatlarının (kommersiya banklarının) geniş şəbəkəsi yaranmışdır. Bu kredit təşkilatları ölkənin sosial-iqtisadi vəziyyətinin stabilliyini təmin edən vasitələrdən biridir.

Maliyyə ststeminin fəaliyyəti prosesində pul sistemindən (pul ödəmələri və hesablaşmalar) istifadə olunur. Bu ödəmə və hesablaşmalar həm nəqd pul nişanlarından istifadə etməklə, həm də nəqdsiz formada həyata keçirilir.

---

[1] bax: Блюков В.Э. Из банковской практики. «Деньги и кредит», 1992, .№3

Valyuta fondlarının yaradılması zamanı isə valyuta əməliyyatlarından istifadə olunur.

Bütün bu münasibətlərdən başqa Azərbaycan Respublikasının digər xarici ölkələrlə əlaqələri zamanı da maliyyə münasibətləri də yaranır. Bu münasibətlər beynəlxalq maliyyə hüququnun predmetini təşkil edir.

Qeyd edək ki, yuxarıda dövlət krediti ilə əlaqədar göstərdiyimiz məsələlər öz səviyyəsində bələdiyyə kreditinə də aidir.

## *SUAL 2.* Dövlətin və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyətinin anlayışı, əhəmiyyəti və metodları

Maliyyə ehtiyatlarından (maliyyə sistemindən) istifadə edilməsinin zəruriliyi dövlət və bələdiyyə təşkilatlarının xüsusi bir fəaliyyəti, yəni maliyyə fəaliyyətinin həyata keçirilməsini şərtləndirir.

Maliyyə fəaliyyətinin həyata keçirilməsi zamanı planlı və məqsədli şəkildə dövlətin və bələdiyyələrin mərkəzləşdirilmiş və mərəkəzləşdirilmə-miş pul fondları təşkil edilir, bölüşdürülür və istifadə edilir.

Dövlətin maliyyə fəaliyyəti – dövlətin sosial-iqtisadi inkişafını, ölkənin müdafiəsini və təhlükəsizliyinin təmin olunması və sair bu kimi vəzifələrin yerinə yetirilməsini təşkil etmək üçün pul fondlarının formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə funksiyalarının həyata keçirilməsi, həmçinin dövlət orqanlarının fəaliyyəti üçün maliyyə ehtiyatlarından istifadə etməsidir.

Bələdiyyə təşkilatlarının maliyyə fəaliyyəti isə yerli özünüidarəçilik orqanlarının qərarı ilə müəyyən olunmuş yerli əhəmiyyətli məsələlərin həll edilməsinə yönələn bu cür fəaliyyətdir.

Bələdiyyə təşkilatlarının maliyyə fəaliyyəti dedikdə, bələdiyyə pul fondlarının əhəmiyyəti sosial-iqtisadi vəzifələrin həyata keçirilməsi və yerli özünüidarəçilik orqanlarının fəaliyyətini maliyyə ehtiyatları ilə təmin etmək üçün planlı şəkildə təşkili, bölüşdürülməsi və istifadə olunması funksiyasının həyata keçirilməsi başa düşülməlidir.

Dövlət hakimiyyət orqanlarının və yerli özünüidarəçilik orqanlarının maliyyə fəaliyyətləri konkret vəzifələri ilə fərqlənsə də onların hər ikisinin ümumi vəzifəsi eynidir. Bu vəzifələr isə Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsinin 1-ci hissəsində göstərildiyi kimi xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsini təmin etməkdir.

Dövlət və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyətlərinin məzmunu müxətlif dövlət və bələdiyyə fondlarının təşkili (formalaşması), bölüşdürülməsi və istifadə olunması ilə bağlı çoxşaxəli funksiyalarda ifadə olunur. Qeyd edək

ki, maliyyə hüquq ədəbiyyatında pul fondlarından istifadə olunmasına bu funksiyaların aid olub-olmaması barədə fərqli fikirlər də mövcuddur. Məsələn, A.A.Xudyakov belə hesab edir ki, maliyyə fəaliyyətinin məzmunu yalnız pul fondlarının təşkili və bölüşdürülməsi funksiyalarından ibarətdir. Lakin bir çox müəlliflərin fikrincə belə məhdudlaşdırma əsassızdır. Çünki, maliyyə fəaliyyətinin mahiyyəti elə dövlət qarşısında duran vəzifələrin həll edilməsi üçün maliyyə ehtiyatlarından istifadə edilməsi ilə əlaqədardır. Bu fəaliyyət prosesində yaranan ictimai münasibətlər isə maliyyə hüququndan başqa, hüququn digər sahələri ilə də tənzimlənə bilər. Nəzarət funksiyası isə hər üç maliyyə fəaliyyətinin ayırılmaz elementidir.

Ümumiyyətlə, funksiyaların müxtəlif olması maliyyə sisteminin çox həlqəli olması və bu həlqələrin özünəməxsusluğu ilə şərtlənir. Bununla əlaqədar olaraq dövlət və bələdiyyə təşkilatları müxtəlif pul fondlarının yaradılması, bölüşdürlməsi və istifadəsi üzrə fəaliyyət göstərirlər: büdcə və kredit ehtiyatları, sığorta pul fondları, dövlət və bələdiyyə müəssisələrinin, təşkilatların və idarələrin maliyyəsi və s.

Dövlət və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyəti sosial idarəetmə mexanizminin və zəruri tərkib hissəsi kimi çıxış edir.

Dövlətin maliyyə fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi bazar iqtisadiyyatına keçid prosesində onun neqativ təsirlərini aradan qaldırimaq üçün (işsizlik, cəmiyyət üzvlərinin maddi vəziyyətinin qeyri-sabit olması, onların gəlirlərinin kəskin şəkildə müxtəlif olması və s.) ədalətli sosial siyasətin həyata keçirilməsinin başlıca amilidir.

Maliyyə fəaliyyətinin nəticəsində dövlət hakimiyyət və idarəçilik orqanlarının, hüquq-mühafizə orqranlarının fəaliyyətlərini, eləcə də ölkənin müdafiə qabiliyyətini və təhlükəsizliyini təmin etmək üçün zəruri olan maddi əsaslar yaradılır.

Dövlət və bələdiyyə təşkilatlarının sosial-iqtisadi proseslərə təsiri təkcə birbaşa maliyyə yardımı formasında yox (müəyyən planlara, proqramlara və sair üçün vəsait ayırma), həm də dolayı yolla – vergi sahəsində müəyyən

güzəştlərin verilməsi, faizsiz kredit verilməsi, yaxud aşağı faizli kredit verilməsi, vergi ödənişlərinin verilməsində möhlət verilməsi və s. bu kimi yollarla təsir göstərilir. Eyni zamanda zəruri hallarda məhdudlaşdırıcı xarakterli tədbirlər də tətbiq oluna bilər.

Dövlət idarəçiliyi mexanizminin tərkib hissəsi və sosial-iqtisadi proseslərin tənzimləyicisi olan maliyyə fəaliyyətinin məzmunu bazar münasibətlərinin inkişafına təsir etmək üçün geniş imkanlara malikdir.

Bazar iqtisadiyyatının inkişaf etdilməsi və iqtisadiyyatın idarə edilməsi prosesindən dövlətin tamamilə kənarlaşdırılmasını təklif edən müəlliflərə cavab olaraq görkəmli amerika alimi R.Kmetqaard göstərdi ki, «səmərəli bazar öz-özünə yaranmır, ancaq düzgün dövlət siyasətinin yeridilməsi və ağıllı qanunvericilik sisteminin yaradılması nəticəsində yaran bilər». Daha sonra Kmetqaard qeyd edir ki, «bazar iqtisadiyyatına aparan islahatların keçirilməsinin uğurlu olması həlledici dərəcədə dövlət idarəçiliyindən asılıdır».

Dövlətin maliyyə fəaliyyəti özünəməxsus təşkilati-hüquqi xüsusiyyətlərə malikdir.

Birincisi, dövlətin digər sahələrdəki fəaliyyətindən fərqli olaraq o, sahələrarası xarakterə malikdir. Belə ki, maliyyə ehtiyatlarının formalaşması, bölüşdürülməsi və istifadə olunması dövlət idarəçiliyinin bütün sahələrinə toxunur. Bundan başqa, maliyyə fəaliyyəti prosesində dövlət, dövlət orqanlarının, həmçinin müəssisə, idarə və təşkilatların onların qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsi üzrə işlərini yoxlayır.

İkincisi, dövlətin maliyyə funksiyalarının həyata keçirilməsi (onların məzmunundan, rolundan, fəaliyyət maştabından və sairədən asılı olaraq) istər hakimiyyətin nümayəndəli, istərsə də icra orqanlarının fəaliyyətindən irəli gəlir. Məsələn, Azərbaycan Respublikasının dövlət fəaliyyətini təmin etmək üçün büdcə vəsaitlərinin bölüşdürülməsi icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Üçüncüsü, maliyyə fəaliyyəti həm ali hakimiyyət və icra orqanları, həm də yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir.

Maliyyə fəaliyyəti də idarəçilik sisteminin bir qolu olmaqla müxtəlif metodlarla həyata keçirilir. Hansı metodun seçilməsi isə bir sıra amillərdən asılıdır: dövlətin, yaxud bələdiyyə təşkilatının konkret mərhələdə qarşısında duran vəzifələrdən, onların gəlirlərinin mənbələrindən, vəsaitlərin istifadə olunmasının məqsədlərindən, dövlət, yaxud bələdiyyə təşktlatının sərəncamında olan maliyyə ehtiyatlarının həcmi ilə onların vəsaitə olan tələbatlarının nisbətindən, ölkə iqtisadiyyatının vəziyyətindən, həyata keçirməli olan tədbirlərindən və sairə.

Məsələn, pul vəsaitlərinin büdcə sisteminə toplanması (cəlb edilməsi) üçün büdcədənkənar dövlət, yaxud bələdiyyə məqsədli fondları məcburiyyət və könüllülük metodlarından istifadə edir. Bu metodların hər birisi səciyyəvi xüsusiyyətlərə malik olan bir neçə növ ödəncləri əhatə edir. Məsələn, dövlət, yaxud bələdiyyə yerli büdcələrə vəsaitlərin cəlb edilməsində istifadə edilən əsas məcburiyyət tədbirləri aşağıdakılardır: hüquqi və fiziki şəxslərdən alınan dövlət rüsumları, vergilər və digər ödənclər. Dövlət sığorta münasibətlərində də məcburiyyət tədbirləri tətbiq olunur (sərnişin daşımalarında sərnişinlərin sığortası və s.). Məqsədli fondlara müəyyən ödənclərin və ayırmaların keçirilməsi də məcburidir. Azərbaycan Respublikasının Mgrkəzi Bankında ehtiyat fondunun yaradılması üçün bankların vəsait ayırması vəsait ayırması da məcburiyyət metodu ilə tənzimlənir.

Pul vergisinin toplanması zamanı istifadə olunan metodlar:

- vergi metodu;
- əhalidən və ya b/ş-dən vəsaitlərin cəlb olunması;
-rüsum alınması;
- sığorta;
-cərimə və s.

Pul vəsaitinin bölüşdürülməsi zamanı metod:

- maliyyələşdirmə metodu;
- kredit vermə metodu;

-təqaüdlərin, müavinatların, hesablaşmaların sığorta vəsaitinin verilməsi.

Dövlət və bələdiyyə pul fondlarının yaradılmasında məcburiyyət tədbiri ilə yanaşı könüllülük metodundan də istifadə olunur: banklara əmanət qoyuluşu, lotereyaların və ya istiqrazların alqı-satqısı, hüquqi və fiziki şəxslərin ianələri və s.

Dövlət pul vəsaitlərinin bölüşdürlməsi zamanı iki əsas metoddan istifadə olunur:

1) maliyyələşdirmə;
2) kreditvermə.

Maliyyələşdirmə – pul vəsaitlərinin digər tərəfə əvəzsiz və birdəfəlik olaraq (yəni verilmiş vəsait geri qaytarılmır) verilməsidir.

Kreditvermə – pul vəsaitlərinin digər tərəfə əvəzli və qaytarılmaq şərtilə verilməsidir.

Həm maliyyələşdirmə, həm də kreditvermə metodları özləri də vəsaitlərin hansı məqsədlər üçün istifadə edilməsindən, onların mənbələrindən, subyektlərin təşkilati-hüquqi xarakteristikasından, bu münasibətlərin iştirakçılarından və digər amillərdən asılı olaraq bir neçə növə bölünürlər.

Dövlət və bələdiyyə təşkilatları vəsaitləri dövlətdən maliyyələşdirmə və kredit yolu ilə, qeyri-dövlət təşkilatları isə başlıca olaraq kredit yolu ilə alırlar (məsələn, fermer təsərrüfatına güzəştli şərtlərlə kredit verilir).

Maliyyə fəaliyyəti prosesində dövlətin, hüquqi və fiziki şəxslərin sərəncamına pul vəsaitlərinin daxil olması, həmçinin ondan istifadə olunması hesablaşma əməliyyatlarının vasitəsi ilə həyata keçirilir. Bu hesablaşmalar müxtəlif formalarda olan nəqdsiz pul hesablaşmaları və pul vəsaitlərinin nəqd ödənilməsi metodu ilə realizə olunur.

Dövlət orqanlarının və yerli özünüidarəçilik orqanlarının, idarə, müəssisə və təşkilatların hesablaşmaları əsasən nəqdsiz yolla, əhalinin ödəmələri (və ya əhaliyə ödəmələr) başlıca olaraq nəqd pul nişanlarından istifadə etməklə həyata keçirilir. Lakin eyni zamanda əhali ilə hesablaşmalar

zamanı nəqdsiz hesablaşma metodu da tətbiq oluna bilər (məsələn, fəhlə və qulluqçuların əmək haqlarından gəlir vergisinin, çığorta haqlarının tutulması). Ümumiyyətlə, dövlətin marağı var ki, nəqdsiz pul hesablaşmalarından daha geniş istifadə olunsun. Çünki, belə olduqda pul sisteminin sabitliyi qorunur və pul kütləsindən daha səmərəli istifadə olunur.

Ölkənin xarici iqtisadi, elmi, mədəni və digər əlaqələri zamanı beynəlxalq hesablaşmaların müxtəlif formalarından istifadə olunur, valyuta əməliyyatları həyata keçirilir.

Dövlət və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyətlərinin metodları hər bir inkişaf mərhələsində onların qarşısında duran vəzifələrdən asılı olaraq dəyişə bilər. Məsələn, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq muasir dövrdə bu metodların tərkibi büsbütün dəyişmişdir. Belə ki, vergilərin və digər məcburi ödəmlərin sayı, eləcə də pul vəsaitlərinin könüllülük metodu ilə cəlb edilməsi növlərinin sayı əhəmiyyətli dərəcədə artmışdır.

Müəssisələrin maliyyələşdirlməsində müəyyən işlərin yerinə yetirilməsindən asılı olan normativ metod tətbiq olunur (müalicə edilən xəstələrin sayı, hazırlanan mütəxəssislərin sayından asılı olaraq və s.). Belə ştat vahidlərinin sayına görə maliyyələşdirmə metodundan imtina olunur. Kredit münasibətlərinin tənzimlənməsində də yeni metodlardan istifadə olunmağa başlamışdır məsələn, kreditə görə faiz tariflərindən fəal şəkildə istifadə olunur, banklar təsərrüfat subyektləri ilə tərəf müqabili kimi çıxış edir və s.

Maliyyə bazarında qiymətli kağızların – səhmlərin, veksellərin, istiqraz vərəqələrinin və başqalarının realizəsi sahəsi, həmçinin kredit münasibətləri yeni məzmunda inkişaf edir. O, müəssisə və təşkilatların pul fondlarının formalaşdırlıması üçün, həmçinin dövlət və yerli özünüidarəçilik orqanlarının maliyyə ehtiyatlarının artırılması (təkmilləşdirilməsi) üçün istifadə olunur. Qanunvericilik maliyyə bazarını inhisarçılıqdan mühafizə edir.

Qeyd edək ki, ölkəmizdə hələ bazar islahatları aparılmamışdan əvvəl də qiymətli kağızlar bazarı müəyyən mənada mövcud olmuşdur. Lakin bu bazar

çox məhdud sahədə olmuşdur (Məsələn, dövlət istiqraz vərəqələrinin yayılması, kredit). İndi isə qiymətli kağızların növləri çoxalmış, bu kağızları buraxan və əldə edən subyektlərin dairəsi genişlənmış, bank kreditinin tətbiqi sahəsi artmişdir.

Azərbaycan Respublikasının müasir mərhələdə maliyyə fəaliyyətini xarakterizə edərkən onu da qeyd etmək vacibdir ki, o, MDB dövlətləri ilə və digər xarici dövlətlərlə əməkdaşlıq şəraitində həyata keçirilir.

Beynəlxalq əlaqələr və xarici iqtisadi əlaqələr Azərbaycan Respublikasının dövlət pul fondlarının gəlir və xərclərində öz əksini tapır.

# N Ə T İ C Ə

Maliyyə iqtisadi kateqoriya olub cəmiyyətin və onun üzvlərinin tələbatlarını ödəmək məqsədilə pul vəsaitlərinin vahid mərkəzdə cəmləşməsi və payldanmasının nizamlanması, istifadəsi prosesində yaranan və dövlət tərəfindən təşkil edilən pula bağlı olan münasibətlərin sistemi deməkdir.

Maliyyə latın sözü olub, hərfi mənası pul tədiyyəsi deməkdir.

Dövlət və bələdiyyə təşkilatları vəzifə və funksiyalarını həyata keçirmək üçün sərəncamlarında həmişə pul vəsaitləri və digər maliyyə ehtiyatlarına malik olmalıdır. Bu isə onların maliyyə fəaliyyəti vasitəsilə təmin olunur.

Dövlətin maliyyə fəaliyyəti dövlətin sosial-iqtisadi inkişafını, ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin olunması və sair bu kimi vəzifələrin yerinə yetirlməsini təşkil etmək üçün pul fondalrının formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə funksiyaların həyata keçirilməsi, həmçinin dövlət orqanlarının fəaliyyəti üçün maliyyə ehtiyatlarından istifadə etməsidir.

Bələdiyyə təşkilatlarının maliyyə fəaliyyəti isə yerli özünüidarəçilik orqanlarının qərarı ilə müəyyən olunmuş yerli əhəmiyyətli məsələlərin həll edilməsinə yönələn bu cür fəaliyyətdir.

Maliyyə fəaliyyəti də idarəçilik sisteminin bir qolu olmaqla müxtəlif metodlarla həyata keçirilir. Bu metodlar əsasən aşağıdakılardır:

- məcburiyyət metodu;
- könüllülük metodu;
- maliyyələşdirmə metodu;
- kredit metodu;
- nəğdsiz hesablaşma metodu;
- nəğd hesablaşmma metodu və sair metodlar.

Dövlətin və yerli özünüidarəçilik orqanlarının hər hansı bir inkişaf mərhələsində qarşılarında duran vəzifələrdən asılı olaraq istifadə olunan metodların tərkibi də dəyişə bilər.